# COĞRAFİYA

UOT 911.3

## TEHRAN ŞƏHƏRİNDƏ ƏHALİ ARTIMI İLƏ İQTİSADİ İNKİŞAF ARASINDAKI ƏLAQƏLƏRİN TƏDQİQİ (1956-1976-cı illər)

**V.Ə.ƏFƏNDİYEV, RƏHİM REZAİ**
***Bakı Dövlət Universiteti***
***vefendiyev@bsu.az***

*Məqalədə Tehran şəhərinin əhali artımı ilə iqtisadi inkişaf arsındakı əlaqələr tədqiq olunur. Iqtisadi potensial Tehran şəhərinin sürətlə inkişafına təkan verir, sosial amillər isə onun inkişafını gücləndirən ən mühüm amildir. Əhali artımı ilə iqtisadi inkişaf bir-biri ilə qarşılıqlı sıx bağlı olan amillərdir. Tehran şəhərinin əhalisinin artımı onun iqtisadi inkişafına həm müsbət, həm də mənfi təsir göstərir. Mənfi təsirləri tənzimləmək məqsədi ilə müvafiq strukturların yaradılması məqsədəuyğun olardı.*

**Açar sözlər:** aqlomerasiya, urbanizasiya, demoqrafiya, aqrar sənaye

Hər bir şəhərin təsir və əhatə dairəsi həmin şəhərin cəzbetmə qüvvəsinə bağlıdır. Bu bağlılıq əhali ilə bağlı olsa da, onunla məhdudlaşmır. Belə ki, çox zaman şəhərin cəzbetmə gücünün əhali artımından daha sürətlə baş verdiyinin şahidi oluruq. Bir çox şəhərlərdə əhalinin azlığına baxmayaraq, sistemli şəkildə idarə edilməsinin və iqtisadi fəaliyyət növlərinin (istehsalat və xidmət) yüksək səviyyədə təşkilinin onların təsir dairəsinin əhalisi çox olan şəhərlərdən daha geniş olmasına gətirib çıxardığının şahidi oluruq. Başqa sözlə, sosial resurslarla yanaşı iqtisadi resurslar da şəhərin daha çox inkişaf etməsinə təkan verir. Sosial amillər şəhərlərin inkişaf sürətini gücləndirən ən mühüm amillərdəndir. Belə ki, şəhərlərin inkişafında əhalinin təbii artım əmsalı, şəhər istiqamətli miqrasiyalar, bir şəhərin əhalisinin digər bir şəhərə köçürülməsi prosesi çox güclü rol oynayır. Buna görə də, əhali quruluşu və əhalinin sıxlıq dərəcəsinin təyin edilməsi şəhərlərin öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir.

Əhali artımı və şəhərlərdə məskunlaşma meyllərinin güclənməsi şəhərlərdəki sosial münasibətlərin formalaşmasında həlledici rol oynayır. Bu proses ənənəvi münasibətlərin yeni xarakter almasına təsir göstərir. Sosial formalaşma şəhərlərdəki mövcud münasibətləri tənzimləyir, şəhər əhalisinin kommunal

tələbatlarını ödəmək və həyat səviyyəsini qaldırmaqla, yeni xidmət növləri təklif etməklə şəhərlərin fiziki inkişafına təsir göstərir.

Qeyd olunanlara əsasən sosial amillər, daha dəqiq ifadə etsək, əhali artımı ilə iqtisadi fəaliyyətlər arasında çox sıx əlaqə mövcuddur.

Müasir günümüzdə Tehran aqlomerasiyası həm əhalinin sıxlığı, həmçinin də iqtisadi sahələrin inkişafı aspektlərindən yetərincə inkişaf etmişdir. Dövlət strukturlarının Tehranda yerləşməsi, dövlətin siyasi və iqtisadi mənafeyi üçün gərəkli olan qərarların bu şəhərdə qəbul edilməsi, yəni siyasi təmərküzləşmə paytaxt Tehranda sosial-iqtisadi təmərküzləşməyə də stimul verirdi.

Nəzəri tədqiqatlara görə, şəhərin inkişafı ətraf aləmdə və daxildə baş verən hadisələrlə sıx əlaqədə olan bir prosesdir. Əhalinin artması hadisəsini iqtisadi inkişaf, siyasi vəziyyət və ictimai mühitin dəyişməsindən ayrı təsəvvür etmək mümkün deyildir. Belə ki, qeyd olunan hadisələrin baş verməsi əhali artımına səbəb olur.

Digər dünya ölkələrində olduğu kimi, İran şəhərlərində də şəhər əhalisi artmaqdadır. Şəhər əhalisinin artması yaxın kəndlərin və k/t ərazilərinin şəhərə birləşməsinə səbəb olur. Məsələn, əhali artımından asılı olaraq Dəhvənk, Təcriş və s. kəndlər Tehrana birləşmişdir. Kənd təsərrüfatı, texniki tərəqqi, ərazilərin məhsuldarlığının artması, yaşayış yerlərinin inkişaf etdirilməsi, iş yerlərinin artması, dövlət və özəl sektorlarda kapital qoyuluşu, xidmət sahələrində tələbatların ödənilməsi, nəqliyyat və rabitə sistemlərinin inkişafı və s. bu kimi iqtisadi münasibətlər iqtisadi amillər formasında şəhərlərin inkişafına təsir göstərir. Texnologiyanın inkişafından asılı olaraq insanların şəhərlərə üz tutması k/t sahələrinin diqqətdən kənarda qalmasına səbəb olur və bütün diqqət şəhərlərə yönəlir. Iranda aqrar islahatlardan sonra (1961-ci il) kəndlərdən şəhərlərə, xüsusilə iri şəhərlərə güclü insan axını baş vermişdir. K/t ərazilərinin kiçik hissələrə bölünməsi, bu ərazilərdə həyata keçirilən fəaliyyət növünün qeyri-iqtisadi forma kimi təqdim edilməsi, kəndlərdə gigiyenik imkanların inkişaf etdirilməsi ilə kənd əhalisinin artırılması suyasəti, neftdən gələn gəlirlərin şəhərlərə ayrılması, şəhərlərdə enerji, universitet, xəstəxana və s. infrastruktur sahələrinin inkişaf etdirilməsi kənd əhalisinin böyük bir hissəsinin şəhərə axışmasına səbəb olmuşdur.

Həmin dövrdə şəhərə gələn əhali şəhərətrafı ərazilərdə məskunlaşmalı oldugundan, gecəqondular formalaşmağa başladı. Şəhərlə gecəqondular arasında əlaqə yaratmaq məqsədilə bu ərazilərə elektrik naqilləri, su boruları çəkilir və küçələr salınır. İranın Tehran, Təbriz, Məşhəd və s. kimi əksər şəhərləri buna görə fiziki cəhətdən inkişaf etmişdir.

1961-1971-ci illərdə aqrar islahatların aparılması nəticəsində ölkənin kənd əhalisinin əkin sahələri onlardan alındığı, habelə, bu cür sahələri olan əhali də dövlətdən yardımlar ala bilmədiyi üçün sərmayə qoyuluşunda enmə qeydə aldığından əhali şəhərlərə, xüsusilə Tehran şəhərinə üz tutdu.

Aqrar islahatlardan öncə, ətraf şəhərlərdə sahibkarlıqla məşğul olan subyektlər, islahatlardan sonra iqtisadi və siyasi fəaliyyətlə məşğul olmaq və sənaye sahələrinə yatırım etmək üçün Tehran şəhərinə üz tutdular.

Cədvəl 1

**1966-1976-cı illər ərzində İranın kənd və şəhər əhalisi (min nəfərlə)**

| **İllər** | **Ölkə əhalisi** | **Şəhər əhalisi** | **Kənd əhalisi** |
|---|---|---|---|
| 1966 | 25,078 | 9,794 | 15,284 |
| 1970 | 29,015 | 11,936 | 17,079 |
| 1976 | 35,680 | 16,794 | 18,886 |

Cədvəldən də göründüyü kimi tədqiq edilən dövr ərzində şəhər əhalisi təxminən 50% artmışdır. Bu artım həm də daxili miqrasiyanın səviyyəsinin göstəricisidir.

Keçən 60 ildə sosial-iqtisadi dəyişikliklərdən sonra İranda gecəqondularda yaşayan əhalinin sayı artmışdır. 1941-ci ilə qədər İranın kənd və şəhərlərində iqtisadi fəaliyyət sahələri, demək olar ki, tarazlıq təşkil edirdi. 1941-1953-cü illərdə kəndlərdən şəhərlərə miqrasiya prosesi başlandı. 1943-cü ildən neftdən gələn gəlirlərin şəhər infrastrukturlarına ayrılması, sənayenin inkişaf etdirilməsi və k/t sahələrinin ətraf ərazilərdə yerləşməsi kənd əhalisinin daha qaynar fəaliyyətli ərazilərə köçməsinə səbəb oldu. Başqa sözlə, 1960-cı ildən başlayaraq k/t sahəsinin rolunun azaldılması, şəhərlərdə sənaye fəaliyyətinin genişləndirilməsi və inkişaf etdirilməsi kənd əhalisinin şəhərlərə, xüsusilə Tehrana köçməsinə gətirib çıxardı.

Bu dövrdə şəhərlərdə məskunlaşma prosesinin güclənməsinə müxtəlif amillər səbəb olmuşdur. Beynəlxalq təsnifat prinsipinə əsasən, İran iqtisadiyyatı üçüncü dünya ölkələrində olduğu kimi vahid istehsal prinsipinə əsaslanan ölkələr sırasına aid edilirdi. Digər tərəfdən isə ölkədə Qərb ölkələrinin sənaye zavodlarının istehsal etdiyi məhsullar üçün istehlak bazarları təsis edilmişdi. Bundan əlavə, 1951-ci ildə illərdə baş verən iqtisadi durğunluq və kənd əhalisinin sərmayə qoyuluşu proseslərindən uzaq qalması ölkə səviyyəsində sosial islahatlar aparılmasına səbəb oldu. Bu islahatlar 1962-ci ilin Ağ inqilabı adı ilə şöhrət tapmışdır. Aqrar islahatlar bu islahatların ən önəmli hissələrindən birini təşkil edirdi.

İslahatlar bir sıra əhəmiyyətli məqsədlərə, o cümlədən sənaye sahələrinə sərmayə qoyuluşu, xüsusilə xarici sərmayə qoyuluşuna şərait yaradılması; bütün mövcud sərmayələrin sənaye sahələrinə yatırılması və İran məhsullarının dünya bazarına çıxarılmasına nail olmaq üçün əsas baza idi.

Bundan əlavə, islahatlar nəticəsində qida və k/t məhsullarının istehsal həcminin azalması da müşahidə edilirdi. Çünki k/t sahələrində çalışanların böyük bir hissəsi sözügedən sahələrdə çalışmaqdan imtina edir, iqtisadi inkişafı sürətlənmiş şəhərlərə miqrasiyaya üstünlük verirdilər. Şəhərdəki sənaye sahə-

lərinin işçi qüvvəsinə olan tələbatı gün-gündən artdığı üçün kəndlərdəki potensial işçi qüvvəsinin şəhərə gətirilməsi işi bu miqrasiyanı sürətləndirirdi.

Aqrar islahatların reallaşması üçün dövlət 1961-1977-ci illərdə abadlaşdırma planı təşkil edərək onu həyata keçirdi. Ölkənin "Üçüncü iqtisadi-sosial proqramı" adlanan bu prosesin əsasını şəhərlərin yenidən qurulması planlarının hazırlanması təşkil edirdi. Bu dövrlərdə şəhərlərin inkişaf etdirilməsi üçün yerli bələdiyyə idarələrinə dövlət də yaxından köməklik göstərirdi. Bu siyasət isə şəhərlərin sosial və iqtisadi inkişafına müsbət təsir etsə də, şəhərin köhnə quruluşu, yəni tarixilik prinsipi diqqətdən kənarda qaldı. Üçüncü abadlaşdırma planına əsasən şəhərlərin sosial təminatının ödənilməsinə diqqət ayrılması ilə yanaşı, su, elektrik sistemləri, yaşayış yerləri, səhiyyə mərkəzləri də inkişaf etdirildi, yollar təmir edildi.

Həmin dövrdə planın icrasının təşkili və icraya nəzarət məqsədi ilə Abadlaşdırma və şəhərsalma nazirliyi yaradılaraq yaşayış, idarə və təşkilat binalarının tikilməsi istiqamətində əsaslı işlər aparıldı.

Üçüncü abadlaşdırma planının həyata keçirildiyi ilk illərdə özəl sektorların sənaye sahələrində fəaliyyət göstərməməsi əsas sənaye müəssisələrinin Tehran və Tehran ətrafı şəhərlərdə mərkəzləşməsinə səbəb oldu. Buna görə də şəhərin əhalisi 2,8 milyon nəfərə çatdı ki, bu cür artım da şəhərlərin sistemsiz böyüməsinə gətirib çıxardı.

Planın 1968-1972-ci illəri əhatə edən dövründə isə iqtisadi inkişafı gücləndirmək, sənaye sahələrini inkişaf etdirmək və s. məsələlər önə çəkildi. Qeyd olunan dövrdə şəhərlərin abadlaşdırılmasına 8,3, kəndlərə 9,8, səhiyyə sahəsinə 2,8, rabitə sisteminə 38,7, nəqliyyat sahəsinə 71,4, su və enerji sektoruna 79,7 milyard rial pul ayrıldı. Kreditlərin əsas hissəsinin səhiyyə, rabitə, nəqliyyat və s. sahələrə ayrılması onu göstərir ki, şəhərlərin abadlaşdırılmasına bu kreditlərdən 60% pay düşür.

Plan üzrə şəhərlərin inkişaf etdirilməsi üç əsas istiqamət üzrə həyata keçirilirdi. Bu istiqamətlər əsasən yerli icra orqanlarının formalaşdırılması, bələdiyyələrin funksiyalarının dəqiqləşdirilməsi, onlar üçün icra mexanizmlərinin hazırlanması, həmçinin dövlət tərəfindən ayrılmış maliyyə vəsaitinin düzgün xərclənməsi üçün lazımi tədbirlərin həyata keçirilməsini əhatə edirdi. Bu məqsədlə yerli bələdiyyə orqanlarında islahatlar aparıldı, yenidən təşkilatlanma həyata keçirildi. Müvafiq tədbirlər həyata keçirildikdən sonra şəhərlərdə abadlıq işləri aparılması üçün dövlət tərəfindən əvəzsiz yardımlar – subsidiyalar ayrıldı.

Tehran şəhərində iqtisadi və sosial inkişafın regionlara nisbətdə 2-3 dəfə çox olması 1963-cü ildə Tehran Şəhərinin İnkişafına Nəzarət İdarəsinin yaranmasına səbəb oldu. Planın 1973-1977-ci illəri əhatə edən mərhələsində həmin idarənin təqdim etdiyi təkliflər əsasında kənd-şəhər istiqamətli miqrasiyalar hesabına şəhərlərin gündən-günə inkişafı və böyüməsi nəzərə alınaraq ilk dəfə tarixi quruluşun qorunub saxlanması zərurəti diqqət mərkəzinə alındı. Təklifdə

qədim məhəllələrin və uçulub-dağılmış yerlərin yeniləşdirilməsi və təmirinə də yer ayrılmışdı.

1973-cü ilə qədər sosial və iqtisadi artım hesabına Tehran şəhərinin böyüməsi birtərəfli, sistemsiz formada baş verirdisə, artıq 1973-1977-ci illərdə birtərəfli inkişafın qarşısının alınması üçün müvafiq tədbirlər həyata keçirilməyə başlandı. Belə ki, ölkənin digər şəhərlərində, xüsusilə Tehranda abadlaşdırma və yenidənqurmanın sistemli şəkildə aparılması, özəl sektorun abadlaşdırma işlərində dövlət dəstəyi ilə iştirakı prinsipi əsas meyar götürülürdü.

1972-ci ildə neftin qiymətinin 4 dəfə artması planın 1973-1977-ci illəri əhatə edən dövrünün icrasına maliyyə yardımlarının ayrılmasına imkan yaratdı.

1956-1966-cı illər ümumi daxili istehsalda kənd təsərrüfatının payının azalması, sənaye və digər iqtisadi fəaliyyətlərin, xüsusilə də xidmət sektorunun inkişafı ilə müşayiət olunmuşdur. Həmin dövrdə ümumi daxili istehsalda iqtisadi fəaliyyətlərin payı aşağıdakı cədvəldəki kimi olmuşdur:

Cədvəl 2

**Ümumi daxili istehsalda iqtisadi fəaliyyətlərin payı**

| **İllər** / **İqtisadi fəaliyyətlər** | **1959** | **1966** | **1976** |
|---|---|---|---|
| Kənd təsərrüfatı | 24/3 | 15 | 8/5 |
| Sənaye | 55/8 | 67/5 | 67/6 |
| Xidmət | 29/5 | 27 | 39/6 |

Bu illərdə Tehran şəhərində infrastrukturun inkişafı, dövlət müəssisələrinin burada yeləşməsi sərmayə qoyuluşunu da artırmışdı. Sərmayə isə əsasən iki istiqamətdə, sənaye sahələrinə və xarici ticarətə yönəlmişdi.

Buna görə də Tehran ölkənin ən böyük iqtisadi fəaliyyətlərinin təmərküzləşdiyi şəhərə çevrilmişdi. Iranın dünya bazarına çıxması ilə Tehran İranla dünya ölkələri arasında körpü - əlaqələndirici rolunu oynamağa başladı. İqtisadiyyatda dövlət payının artması, sənaye, bank müəssisələrinin, həmçinin dövlət nazirliklərinin, böyük xəstəxanaların, universitetlərin və digər ictimai-sənaye obyektlərinin Tehranda yerləşməsi əhalinin və xidmət obyektlərinin sürətli artımı ilə nəticələndi. 1934-1938-ci illərlə müqayisədə qeyd olunan dövrdə Tehran şəhərində yerləşən sənaye müəssisələrinin və işçilərin sayı 25 dəfə artmışdı. Yalnız 1955-1962-ci illərdə Tehranda 1000-dən çox yeni sənaye müəssisələri yaradılmışdı. Başqa sözlə, 1957-ci ildə ölkədəki sənaye müəssisələrinin təxminən 50%-i Tehranda yerləşirdi. Daha dəqiq desək, 1957-ci ildə ölkədə mövcud olan 4420 sənaye müəssisəsindən 2123-ü Tehranda fəaliyyət göstərirdi. 1963-cü ildə isə ölkədə mövcud olan bütün sənaye müəssisələrinin 27,5%-i Tehranda cəmləşmişdi.

1964-cü ildə ölkə üzrə ümumi sərmayə yatırımının 50%-dən çoxu Tehranda cəmləşmişdi. Həmin ildə İranda fəaliyyət göstərən fabriklərin 40%-i,

fabrik işçilərinin 37%-i Tehran şəhərinin payına düşürdü. Bütün ölkəyə nisbətdə Tehranda satış həcmi 58%, ümumi daxili məhsul isə 62% təşkil edirdi.

Həmin illərdə Tehranda sərmayə qoyuluşunun və müxtəlif sənaye müəssisələrinin artması ilə paralel olaraq bu şəhərə işçi qüvvəsinin axın faizində də artım müşahidə edilmişdir. Belə ki, 1921-ci ildən 1956-cı ilə qədər olan dövr ərzində Tehran şəhərinin əhalisi 210.000 nəfərdən 1.512.082 nəfərə çatmışdı ki, bu artımı illər üzrə bölsək, hər ilə 5,9% artımın olduğu məlum olar. 1956-cı ildə Tehran şəhərinin əhalisi ölkənin ümumi əhalisinin 7,9%-ni, Tehran əyaləti əhalisinin isə 95%-ni təşkil edirdi.

1966-1976-cı illəri əhatə edən dövrdə də milli iqtisadiyyatda kənd təsərrüfatının payının azalması əsas istiqamətlərdən olmuşdur. Həmin dövrdə dünya bazarında neftin qiymətində baş vermiş qəfil artım İran iqtisadiyyatına müsbət təsir etmişdi. Bu illərdə sənaye istehsalı, xidmət sektoru və tikinti işləri İran iqtisadiyyatının əsas inkişaf tempini təşkil edirdi.

Neft satışından əldə olunmuş gəlirin yaşayış binaları və ictimai obyektlərin tikintisinə ayrılması Tehran şəhərinin inkişafını sürətləndirməklə yanaşı, qeyd olunan səbəbdən bir sıra problemlər meydana çıxmışdı. Belə ki, Tehran Şəhərində iqtisadiyyatın təmərküzləşməsi ilə daxili miqrasiyanın sürətlənməsi şəhər ətrafında olan gecəqonduların sayını da artırmışdı. İnfrastrukturun lazımi səviyyədə olmaması, həmin arazilərdə su, işıq, xüsusən də kanalizasiya xətlərinin olmaması şəhər ətrafının çirklənməsi, qeyri-standart inkişafın yaranması ilə nəticələnirdi. Dövlətin bunun qarşısını ala bilmək gücü olmadığından yeganə çıxış yolu kimi şəhərin 120 km-dən kənarda yeni binaların, evlərin, məişət obyektlərinin tikintisi qadağan edildi. Eyni zamanda, Tehrana əhali miqrasiyasının qarşısının alınması məqsədi ilə Təbriz, İsfahan və digər böyük şəhərlərdə maşınqayırma, metaləritmə zavodları tikilərək istifadəyə verildi.

Dövlətin bu tip müəyyən layihələri həyata keçirməsi sənaye müəssisələrinin ölkənin digər regionlarında da mərkəzləşməsinə səbəb oldu. Lakin əvvəlki dövrlərdə olduğu kimi, bu dövrdə də dövlət müəssisələri hələ də Tehranda təmərküzləşmişdi.

Statistik rəqəmlərə nəzər salsaq görərik ki, 1968-ci ildə şəhər əhalisinin məşğul hissəsinin 37%-i sənaye sektorunda, 16%-i isə xidmət sektorunda fəaliyyət göstərirdi. 1976-cı ildə isə məşğul əhalinin 32%-i sənaye sektorunda, 66%-dən çoxu isə xidmət sektorunda mərkəzləşmişdi.

Bu göstəricilərdən də həmin dövrdə Tehran əhalisinin artımında nəzərə çarpacaq inkişafın olduğunu müəyyənləşdirmək olar. Qeyd olunan dövrdə ölkənin, demək olar ki, bütün regionlarından Tehrana miqrasiya edilmiş, Tehran əhalisinin artımının 33%-i miqrasiyanın hesabına olmuşdur. 2 nömrəli cədvəldə həmin dövr üçün əhali artımının göstəriciləri öz əksini tapmışdır.

Cədvəl 3

**Tehran şəhərinin və iqtisadiyyatın müxtəlif sahələrində məşğulluğun vəziyyəti**

| **İqtisadi bölmələr** | **1968** | **Tehran** | | | **Tehran şəhər məntəqəsi** | |
|---|---|---|---|---|---|---|
| | | **1976** | **1980** | **1986** | **1976** | **1986** |
| Kənd təsərrüfatı | 2 | 9 | 8 | 9 | 5,6 | 4,6 |
| Sənaye | 37 | 32,8 | 35,5 | 26,6 | 33,8 | 28,7 |
| Xidmət | 61 | 66,3 | 63,7 | 72,5 | 60,6 | 66,7 |
| Ümumi | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| **İllər** | Tehran əhalisi nəfərlə | 1966-76-cı illərdə miqrasiya nəticəsində Tehran əhalisinin artım faizi | Tehran əhalisinin ümumi ölkə əhalisinə nisbətdə payı | Tehran əhalisinin əyalət əhalisinə nisbətdə payı | Tehran əyaləti əhalisinin ümumi ölkə əhalisinə nisbətdə payı | |
| **1966** | 2719730 | 33,1 | 11 | 99 | 10,6 | |

Şərh edilənlərə əsasən belə bir nəticəyə gəlmək olar ki, əhali artımı ilə iqtisadi inkişaf bir-birinə bağlı olan amillərdir. Təbii artım, yaxud daxili miqrasiyanın hesabına Tehran əhalisinin artmasının bu şəhərin iqtisadi inkişafına müsbət təsirləri kimi mənfi təsirləri də mövcuddur. Mənfi təsirlərin aradan qaldırılması üçün isə miqrasiya sistemli şəkildə aparılmalı, nəzarətedici struktur yaradılmalıdır.

## ƏDƏBİYYAT


1. Tehran şəhəri ilə bağlı statistik göstəricilər. İran statistika mərkəzi, 1971, s. 217.
2. Əfəndiyev V.Ə., Dəmirqayayev Ş.Q. Azərbaycan Respublikasının şəhərlərinin inkişafının coğrafi məsələləri (monoqrafiya). Bakı: Nicat, 1995, 173 s.
3. Şəkuyi Hüseyn. Şəhər coğrafiyası məsələləri. Tehran pedaqoji Universiteti, 1989, 225 s.
4. Fərid Yədullah. Sosial coğrafi düşüncələr. Təbriz universiteti, II nəşr, 1986, 305 s.


## ИССЛЕДОВАНИЕ ВЗАИМОСВЯЗИ МЕЖДУ РОСТОМ НАСЕЛЕНИЯ И ЭКОНОМИЧЕСКИМ РАЗВИТИЕМ ГОРОДА ТЕГЕРАН (1956-1976 гг.)


**В.А. ЭФЕНДИЕВ, РАГИМ РЕЗАИ**


## РЕЗЮМЕ


В данной статье исследуется взаимосвязь между увеличением населения и экономическим развитием города Тегеран. Экономический потенциал дает сильный импульс развитию города Тегеран, а социальные факторы ускоряют это развитие. Увеличение населения и экономическое развитие тесно взаимосвязаны друг с другом. Увеличение населения города Тегеран оказывает положительное и, в то же время, отрицательное влияние на его экономическое развитие. Создание соответствующих структур является целесообразным для регулирования отрицательных факторов.



**Ключевые слова:** агломерация, урбанизация, демография, агропромышленность.

# RESEARCH OF THE INTERRELATION BETWEEN INCREASE IN POPULATION AND ECONOMIC DEVELOPMENT OF TEHRAN (1956-1976)

**V.A. AFANDIYEV, RAHIM REZAI**

**SUMMARY**

This article explores the interrelation between increase in population and economic development of Tehran. Economic potential gives a strong impetus to the development of Tehran, and social factors accelerate this development. Increase in population and economic development are interconnected. Increase in population in Tehran has both positive and negative impacts on its economic development. Establishment of appropriate structures is advisable for the regulation of negative factors.

**Key words:** agglomerated, urbanization, demography, agrarian industry.

*Redaksiyaya daxil oldu: 10.01.2011-ci il.*
*Çapa imzalandı: 20.05.2011-ci il.*